# "Azərbaycan ədəbiyyatı tarixi":

## *İntibah dövrü ədəbiyyatına elmi-nəzəri yanaşmalar*



**Əlizadə Əsgərli,**
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru, professor***

**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Azərbaycan ədəbiyyatı tarixi"nin ikinci cildi çapdan çıxıb. Nəşrin baş redaksiya şurası Ramiz Mehdiyev (sədr), İsa Həbibbəyli (baş redaktor), Teymur Kərimli, Nüşabə Araslı, İmamverdi Həmidovdan, redaksiya şurası isə İsa Həbibbəyli (baş redaktor), İmamverdi Həmidov (məsul redaktor), Nüşabə Araslı, Fəridə Əzizova və Aygün Bağırlıdan (məsul katib) ibarətdir. Kitab AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının 3 iyul 2020-ci il tarixli 3 saylı qərarı ilə nəşr edilib.**

"Azərbaycan ədəbiyyatı tarixi" kitabı akademik İsa Həbibbəylinin ümumi redaktəsi ilə çap olunub. Nəşrin annotasiyasında deyilir: "Oncildlik Azərbaycan ədəbiyyatı tarixinin ikinci cildi Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü (VII-X əsrlər) və intibah dövrünü (XI-XII əsrlər) əhatə edir.

Ədəbiyyat tarixçiliyində ilk dəfə olaraq Azərbaycan yazılı ədəbiyyatı tarixi milli ədəbi irsin möhtəşəm nümunəsi olan "Kitabi-Dədə Qorqudla" başlamış, bu ədəbi abidənin şifahi başlanğıc baxımından əhəmiyyəti qeyd olunmaqla bərabər, daha çox yazılı ədəbiyyat olması elmi cəhətdən əsaslandırılıb.

Azərbaycan xalqının ədəbi fikri sonralar Orxan-Yenisey abidələri kimi nadir ortaq ümumtürk ədəbiyyatı kontekstindən ölkə ədəbiyyatına doğru inkişaf edib. Cilddə, həmçinin qədim Alban yazılı abidələri və Azərbaycanda İslamın qəbul edilməsindən sonra VIII-XII əsrlərdə ərəb dilində yazıb-yaratmış azərbaycanlı alim və şairlərin yaradıcılığı, habelə, həmin ədəbi-mədəni prosesin zirvəsini təşkil edən Xətib Təbrizinin elmi-ədəbi irsi araşdırma predmetinə çevrilib.

Bununla belə, cildin əsas məzmununu XI-XII əsrlər intibah dövrünün Azərbaycan poeziya məktəbi və onun Nizami Gəncəvi, Qətran Təbrizi, Xaqani Şirvani, Məhsəti Gəncəvi, Fələki Şirvani, Mücirəddin Beyləqani kimi görkəmli nümayəndələrinin yaradıcılıq xüsusiyyətlərinin təhlili təşkil edir. Dünya ədəbiyyatının ən böyük şəxsiyyətlərindən biri, böyük Azərbaycan şairi Nizami Gəncəvinin ədəbi irsi, onun bəşər ədəbi-mədəni xəzinəsinə bəxş etdiyi "Xəmsə"si möhtəşəm ədəbiyyat hadisəsi kimi təqdim olunur, Nizami ədəbi məktəbinin özünəməxsusluqlarından bəhs edilir".

Bu fundamental tədqiqat əsəri iki hissədən ibarətdir. Birinci hissə "Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü (VII-X əsrlər), ikinci hissə "İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər)" adlanır.

Birinci hissə Nizami Gəncəviyə qədərki dövr olub (VII-X əsrlər) "Ədəbiyyatda ortaq başlanğıc" (İsa Həbibbəyli), "Azərbaycan ədəbiyyatı tarixinə baxış" (A.Rüstəmova), "VII-X əsrlərdə Azərbaycan ədəbiyyatı (Azərbaycan ədəbiyyatının ortaq başlanğıc dövrü)" (Qafar Kəndli-Herisçi, Zakir Məmmədov, İmamverdi Həmidov, Fəridə Əzizova), "Kitabi-Dədə Qorqud" şifahi və yazılı ədəbiyyat abidəsi kimi" (İsa Həbibbəyli), "Zərdüşt. "Avesta" (Çingiz Sadıqoğlu), "Oğuz Kağan dastanı" (Tofiq Hacıyev), "Orxon-Yenisey kitabələri" (Tofiq Hacıyev), "Alban yazılı ədəbiyyatı" (İsa Həbibbəyli), "Azərbaycan ərəbdilli məvali ədəbiyyatı" (İmamverdi Həmidov), "İsmayıl ibn Yəsar" (Malik Mahmudov, Ülkər Məmmədova), "Musa Şəhavat" (Malik Mahmudov, İmamverdi Həmidov), "Əbül-Abbas əl-Əma" (Malik Mahmudov, Ülkər Məmmədova) və "Bərakəveyh Zəncani" (İmamverdi Həmidov) məqalələri ilə ehtiva olunub.

"Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü (VII-X əsrlər)" adlı birinci hissəyə 13 oçerk daxil edilib. Bunlardan 4-ü portret-oçerkdir. 9 məqalə isə icmaldır.

Akademik İsa Həbibbəyli birinci hissədə "Ədəbiyyatda ortaq başlanğıc", "Kitabi-Dədə Qorqud" şifahi və yazılı ədəbiyyat abidəsi kimi", "Alban yazılı ədəbiyyatı" məqalələrini çap etdirib.

"Azərbaycan ədəbiyyatı tarixi"nin ikinci hissəsi "İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər)" adlanır. Bu hissədəki 19 məqalədən 2-si icmal, 17-si isə portret-oçerkdir. Kitabın axırında əhatəli ədəbiyyatı siyahısı, ingiliscə və rusca xülasə verilib.

"Ədəbiyyatın intibah vüsəti" icmalı İsa Həbibbəyliyə, "XI-XII əsrlər Azərbaycan ədəbiyyatı (İntibah dövrü Azərbaycan ədəbiyyatı)" icmalı isə Həmid Araslı, Qafar Kəndli- Herisçi, Azadə Rüstəmova və Zakir Məmmədova məxsusdur. Portret-oçerklər: "Bəhmənyar Azərbaycani" (Ülkər Məmmədova), "Qətran Təbrizi" (Xəlil Hüseynov, Könül Hacıyeva), "Xətib Təbrizi" (M.Mahmudiv, Nailə Tağıyeva), "Mahmud Kaşğarlı. Divanü-lüğət-it-Türk" (Tofiq Hacıyev), "Yusif xas Hacib Balasaqunlu. "Qutadqu-bilik" (Tofiq Hacıyev), "Ömər Gənci" (İmamverdi Həmidov), "Təntənari Marağai" (Fəridə Əzizova), "Məsud ibn Namdar" (Akif Əliyev), "Eynəlqüzat Miyanəçi" (Ülkər Məmmədova), "Əbül-Əla Gəncəvi" (Qafar Kəndli-Herisçi, Leyli Əliyeva), "Məhsəti Gəncəvi" (Zəhra Allahverdiyeva), "Fələki Şirvani" (Azadə Rüstəmova), "Mücirəddin Beyləqani" (Ruqyyyə Qəmbərqızı, Lalə Əlizadə), "Şihabəddin Sührəverdi" (Ülkər Məmmədova), "Əbubəkr ibn Xosrov əl-Ustad" (Xanverdi Babayev), "Xaqani Şirvani" (Qafar Kəndli-Herisçi, İmamverdi Həmidov, Elnarə Zeynalova) və "Nizami Gəncəvi" (Azadə Rüstəmova, Siracəddin Hacı) məqalələridir.




İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər) məqaləsinin izah və şərhi zamanı akademik İsa Həbibbəyli mühüm elmi tezislər irəli sürüb. Alimə görə, VII-X əsrlərin qədim türk sivilizasiyası ilə İslam dini dünyagörüşü yanaşı inkişaf edib, sonrakı əsrlərdə isə qarşılıqlı inteqrasiya prosesləri özünü göstərib.

Tarixən dillərin və mədəniyyətlərin qarşılıqlı əlaqəsi təzahür edib. Ərəb və fars dillərinin inteqrasiyası daha fəal şəkil alıb, tədricən ictimai-ədəbi proseslərdə üstünlük qazanıb. Şərq ərazisində - siyasi üstqurumda ərəb və fars dilləri dövlət dili olaraq qəbul edilib, fars dili üstün mövqeyə keçib. Ərəb dili elm, fars dili isə poeziya dili kimi qərarlı olub. Səlcuqlar, Atabəylər və Şirvanşahlar dövləti elm, təhsil, ədəbiyyat və mədəniyyətin inkişafına təkan verib.

Bakı, Təbriz, Ərdəbil, Naxçıvan, Gəncə, Marağa, Şamaxı, Qəbələ, Dərbənd, Beyləqan kimi böyük şəhərlərdə ticarət, memarlıq və sənətkarlıq iqtisadi-mədəni mühiti canlandırıb.

Təbriz, Naxçıvan, Gəncə, Şamaxı, Ərdəbil və Marağa şəhərlərinin paytaxt olması da ədəbiyyat və mədəniyyətin inkişafına təkan olub.

Akademik İsa Həbibbəyli qeyd edir ki, karvansaralar, bazarlar, xanəgahlar və məscidlər mədəni inkişafa təsir göstərib. Şərq və Qərb ölkələrində ticarət və mədəni əlaqələrin qarşılıqlı inkişafını gücləndirib. "Xüsusən, Azərbaycanda qədim karvan yollarının Avropa ilə Asiyanı əlaqələndirən İpək yolu ilə birləşməsi regionda və ölkədə cəmiyyət həyatında bütün istiqamətlər üzrə böyük yeniləşmə və inkişafa səbəb olub"...

Alim məxsusi vurğulayıb: "Bütün bunlar Şərq ölkələrinin ictimai-mədəni mühitində və iqtisadi inkişafında intibah hadisəsinin baş verməsi ilə nəticələnib... Şərq intibahı və ya Müsəlman renessansı adlandırılan bu mühüm siyasi-iqtisadi və mədəni hadisə Çindən Hindistana, Orta Asiyadan İrana, Anadoludan Qafqaza qədərki böyük coğrafiyada, o cümlədən Azərbaycanda özünün inkişaf etmiş böyük ədəbiyyatı və incəsənətini, mükəmməl elmi məktəblərini meydana çıxarıb". Elm vasitəsilə qədim antik ideyalar da Azərbaycan ədəbiyyatına gətirilib. Antik dövr elmi fikrinə müraciətin kökündə isə qədim yunan filosoflarının əsərlərinin ərəb dilinə tərcüməsi dayanıb.

Akademik İsa Həbibbəyli aydınlaşdırır ki, Azərbaycan ədəbiyyatı klassikləri ərəbdilli tərcümələr vasitəsilə elmi və ictimai fikrin zəngin xəzinəsi olan antik irsdən yaradıcı surətdə istifadə edib, yeni tipli bədii əsərlər meydana gətirib. Belə mənəvi dirçəliş ictimai fikrə və ədəbiyyata, müasir ideyaların tərənnümünə geniş yol açıb.

Türk-İslam sivilizasiyası və antik yunan mədəniyyətinin inteqrasiyası Şərqdə alimlərin və elmi məktəblərin meydana çıxmasına şərait yaradıb. Bu səbəbdən elmi irs böyük ədəbiyyatın qüvvətli dayağına çevrilib (Mahmud Kaşğarinin "Divani-lüğət-it türk", Ə.Yəsəvinin "Divani-hikmət", Y.Balasaqunlunun "Qutadqu-bilik", Süleyman Bakirqaninin "Bakirqani kitabı", Ə.Yüknəkinin "Hibbatül-həqaiq" əsərləri və s.).

Alim Anadolu türkləri ədəbiyyatından Yunis Əmrə, Mövlana Cəlaləddin Rumi, Əhməd Fakih və Xəlil oğlu Qul Əlinin yaradıcılığını, habelə, əski qıpçaq ədəbiyyatından "Kodeks Kumanikus" mətnlərini və Misir qıpcaq ədəbiyyatını türk-müsəlman intibahının bəhrəsi kimi qiymətləndirib. Nizami Gəncəvi, Əfzələddin Xaqani, Məhsəti Gəncəvinin müsəlman renessansındakı xüsusi yerini və ədəbi-tarixi xidmətlərini göstərib.

XII əsr Azərbaycan intibahının göstəricisi Nizami Gəncəvinin "Xəmsə" əsərləri - epik poemaları və ya mənzum romanları, Əfzələddin Xaqaninin "Mədain xərabələri", "Töhfətül-İraqeyn", "Qəsideyi-Şiniyyə", Məhsəti Gəncəvinin rübailəridir. XI əsr Azərbaycanda farsdilli ədəbiyyatın üstünlüyü şəraitində keçib.

İntibah dövrü Azərbaycan ədəbiyyatının əsas dayaqlarından biri folklor olub. Nizami Gəncəvi və folklor mövzusunda geniş tədqiqatlar aparılıb.

Azərbaycan ədəbiyyatının yüksək bəşəri mövqeyi Nizami Gəncəvi, Əfzələddin Xaqani, Məhsəti Gəncəvi, Əbül-Əla Gəncəvi, Fələki Şirvani, Mücirəddin Beyləqani yaradıcılığındakı ədalət, humanizm, dövlətçilik, bərabərlik, mənəvi zənginlik və zəhmətə münasibətlə bağlı olub.

Bu baxımdan alimin məsələyə elmi-nəzəri yanaşmalarının müqayisə məntiqi, orijinallığı da diqqəti cəlb edir: Avropada intibah hadisəsi realizmi, Azərbaycanda isə romantik ədəbiyyatı doğurub. Realizm Qərb mədəniyyəti və ədəbiyyatına, romantik bədii metod isə Şərq ədəbiyyatı və Azərbaycan poeziyasına geniş şərait yaradıb.

Akademik də bu qənaətdədir ki, renessans XI-XII əsrlərin türk-müsəlman dünyasında, beynəlxalq elmi fikirdə qəbul edilmiş gerçəklikdir.

XII əsr ümumşərq epoxasıdır, xüsusilikdə Azərbaycan ədəbiyyatında Nizami Gəncəvi intibahıdır. XI-XII əsrlər Azərbaycan ədəbiyyatı türk-müsəlman intibahının mühüm mədəni hadisəsi, Azərbaycan ədəbiyyatının "qızıl dövrüdür".

Ədəbiyyatşünas-alim ümumiləşmə verib ki, "bəşəri ideyalar, humanizm, ədalət, bərabərlik, azadlıq, şəxsiyyətin bütövlüyü və mənəvi zənginliyi- Azərbaycan ədəbiyyatının özü ilə gətirib böyük ədəbiyyat səviyyəsinə qaldırdığı əsl intibah ideallarıdır".

Görkəmli elm təşkilatçısı, akademik İsa Həbibbəylinin layihə rəhbərliyi ilə "Azərbaycan ədəbiyyatı tarixi" fundamental nəşrlərinin I, II və III cildləri (Şifahi xalq ədəbiyyatı, VII-X əsrlər - Ortaq başlanğıc dövrü ədəbiyyatı, XIII-XVI əsrlər - Orta əsrlər ədəbiyyatı) elmi ictimaiyyətə çatdırılıb. Hazırda vacib cari vəzifə fundamental çoxcildliyin IV (XII-XVIII əsrlər - erkən yeni dövr), V (XIX əsr - yeni dövr), VI (XX əsr - sovet dövrü), VII və VIII (XX-XXI əsrlər - müstəqillik dövrü), IX (Cənubi Azərbaycan ədəbiyyatı) və X (mühacirət ədəbiyyatı) cildlərini çapdan çıxarmaqdır. Akademik nəşrlərin 2022-ci ildə başa çatdırılması nəzərdə tutulub. Bu yolda elmin böyük qurucusu, akademik İsa Həbibbəyliyə və onun rəhbərlik etdiyi mütəşəkkil və fədakar institut kollektivinə yeni uğurlar arzulayırıq.